

## RƏHMAN SÜLYEMANOĞLU

### GÖRDÜM

Axtardım, aradım düzü, dünyanı,
Həqiqət eşqilə gəzdim hər yanı.
Bir tapım o saflıq, o paklıq hanı?
Mən onu göylərin üzündə gördüm.

Tanrıdan pay olan illərdən keçdim,
Gözü tərəzitək ellərdən keçdim.
Yaxşını, yamanı aradım, seçdim,
Nadanı çöllərdə, düzlərdə gördüm.

Boylandım sabaha, özünü öyən,
Boynunu bükmüşdü döşünə döyən.
Əymişdi qəddini əməli deyən,
Dünyanın dərdini gözündə gördüm.

Rəhmanam, sözlərim bir nağıl deyil,
Qapazdır bilənə, bir sığal deyil.
Acı həqiqətdir, bir noğul deyil,
Mən onu dillərdə gəzəndə gördüm.

### QAZANDIĞIN RƏHMƏTDİRMİ

Bel bağlama bu dünyanın varına,
Aldatmasın gözlə səni ha fürsət.
Güvənəsən namusuna, arına,
Təmiz addı cahü-cəlal, var-dövlət.

Arzulama acı olan bal dada,
Acılıq var xalis olan balda da.
Rəva bilmə nəfsin səni aldada,
Bu gün vardır, sabah yoxdu şan-şöhrət.

Çox sevinmə bu dünyaya gəlməyə,
Əməl varmı tanrı onu bilməyə?!
Bir an düşün: "Hazırsanmı ölməyə?!"
İstəyirsən yaradandan ya möhlət,
Qazandığın lənətdirmi, ya rəhmət.

### AY OĞLUM

Güclüyə güc göstər, sən boyun əymə,
Fağıra arxa ol, xətrinə dəymə.
Ya haqlı, ya haqsız kimsəyə söymə,
Mərifət elmini qazan, ay oğlum.

Unutma, var-dövlət gəldi-gedərdi,
Bunu dərk edənin söylə nə dərdi.
Naxələf insanın ömrü hədərdi,
Tanrıdır taleyi yazan, ay oğlum.

Əlin açıq olsun, çörək gizləmə,
Mətin ol həyatda, heç vaxt sızlama.
Ayıq ol, hər kəsdən aman gözləmə,
Çoxalıb haqq yolun azan, ay oğlum.

Nəfsinə hakim ol, tox olsun gözün,
Heç yalan danışma, tam olsun sözün.
Sən elə cığır sal, yol olsun izin,
Ucalsın bu yolla gəzən, ay oğlum.

Özün ol, həyatda özünə güvən,
Kişi ol, mərdanə sözünə güvən.
Öyrən sirlərini, sazına güvən,
Dərd qanan olubdur ozan, ay oğlum.

### DAĞLARIN

Allah ömür verə, qismət eləyə,
Gedəm görüşünə yenə dağların.
Yalvaram, yapışam əsən küləyə,
Duman sinəsiylə enə dağların.

Çıxam zirvəsinə düz qayaların,
Düşəm tilsiminə boz qayaların.
Söyləyəm şəninə söz qayaların,
Sirrindən danışam sənə dağların.





Bir anlıq qayıdam ötən çağlara,
Hayqırıb səs salam uca dağlara,
Deyəm ki, zəmanə qalıb ağlara,
Yox olub döşündən binə dağların.

Soruşam göylərə necə ucalıb?
Öyrənəm sirrini, nə gec qocalıb?
Deyəm ki, kişilik, mərdlik necolub?
Pozula sükutu, dinə, dağların.

Danışa mənimlə ağsaqqalyana,
Danışam dərdimi, o da ki qana.
Rəhmanam, yetiməm, halıma yana,
Yazığı gələ bir mənə dağların.

### AY ALLAH

Əlacsız düşüncə, çarəsiz fikir,
Dağıdır beynimi, sökür, ay Allah.
Sinəmi gen görüb tale qəm əkir,
Buydumu verdiyin mənə pay, Allah?

Yuxu bildim səksəkəli mürgünü,
Sanki ildi bu dünyanın hər günü.
Göstərincə mən yazığa görkünü,
Göndər Əzraili, göndər, ay Allah.

Qara gün qaş olub gözlərim üstə,
Ağlaram əllərim dizimin üstə.
Uzanıb biryolluq üzümün üstə,
Dincəlmək istərəm elə hey, Allah.

Dünənim mənimçün bahadan-baha,
Daha inanmıram, heç nəyə daha.
Rəhmanam, batmışam çoxdan günaha,
Sən məni inamsız bəndə say, Allah.

### A DÜNYA

Mən daha dərdini çəkən deyiləm,
Daha məndən heç nə umma, a dünya.
Bir damcı su belə tökən deyiləm,
Mənə ümid olub yanma, a dünya.

Yorulmuşam, yoxuşundan bezmişəm,
Ətəyindən əllərimi üzmüşəm.
Çox görmüşəm sərt üzünü, dözmüşəm,
Daha məni fağır sanma, a dünya.

Bir yandan boşaldın, bir yandan doldun,
Bir yandan açıldın, bir yandan soldun.
Səni duyanları bəlaya saldın,
Olub-keçənləri danma, a dünya.

Dərdin qalaqlanıb dağlara dönüb,
Yaşın saya gəlməz çağlara dönüb.
Korlanıb gərdişin ağlara dönüb,
Rəhmanam, danlasam dinmə, a dünya.

### DƏRD OLASIDIR

Kəsir qollarımı dərdin cilovu,
Əsirəm dünyanın dərd qalasında.
Dünyanı yandırır dərdin alovu,
Əsirəm dünyanın dərd qalasında.

* * *

Mənimçün bu dünya dərd qalasıdır,
Neçə ki çəkən var, dərd qalasıdır.
Bilirəm çəkməklə qurtaran deyil,
Qonağam, dünyada dərd qalasıdır.

Söyüd ağacına barsız deyirlər,
Kara gəlməyənə karsız deyirlər.
Dərdi qanmayana arsız deyirlər,
Qananın canını dərd alasıdır.

Dərd çəkmək sızlayıb ağlamaq deyil,
Dərd çəkmək qara şal bağlamaq deyil.
Dərd çəkmək zamanı saxlamaq deyil,
Zaman canımıza dərd salasıdır.

Yaxına buraxdım, üz verdim dərdə,
Yandırdı canımı, köz verdim dərdə.
Dedim əyilmərəm, söz verdim dərdə,
Sevinc də ömürün dərd-bəlasıdır.

Azın az dərdi var, çoxun çox dərdi,
Acın ac dərdi var, toxun tox dərdi.
Varmı ki, eləsi, onu yox dərdi?
Hardolsa, insanı dərd bulasıdır.

Ay Rəhman, çəkginən, kiri, dərdini,
Pünhan çək, bilməsin biri dərdini.
Çətindir çəkmək çox, diri dərdini,
Ölümün de, kimə dərd olasıdır.

## OLAR

Hər saqqal ağardan ağsaqqal olmaz,
Ağsaqqal olanın sözü dağ olar.
Fərqi çoxdur, ağsaqqalla ağ başın,
Ağsaqqal olanın üzü ağ olar.

Dəyişməz nahaqqı haqqa heç zaman,
Dili yalan tutmaz, söyləməz yaman.
Ağsaqqal olanı aldatmaz güman,
Naxələf insandan o, uzaq olar.

Ağsaqqallıq ağsaqqalın içində.
Ağsaqqallar hamısı bir biçimdə,
Ağsaqqallar ömür boyu seçimdə,
Seçə-seçə başında papaq olar.

Gəl, yaxşını sən yamandan seç görüm,
Ya saqqaldan, ya da bığdan keç görüm.
Həqiqəti, bir ölçü tap, ölç görüm,
Yalan həqiqətə bil, yamaq olar.

Ağsaqqalın sevincindən dərdi çox,
Ağsaqqal olanın daim gözü tox.
Ay Rəhman, sən səhv etsən, eybi yox,
Ağsaqqalın səhv eyləsə, ağ olar.

## İNCİYƏM TANRININ ELƏ ÖZÜNDƏN

Gen dünya səbrimi yaman daraldıb,
İnciyəm tanrınınn elə özündən.
Saflığı qalmayıb heç suların da,
Bulaqlar bulanıb elə gözündən.

Böyüyün, kiçiyin yeri bilinmir,
Vicdanın ləkəsi, kiri bilinmir.
Bir evin arvadı, əri bilinmir,
Heç əsər qalmayıb kişi sözündən.

Nağıla dönübdür ağır analar,
Kişilər böyüdən fağır analar.
İndi də ərənlər doğur analar.
Ancaq ki, tapılar biri yüzündən.

Mənliyi, şərəfi atıb insanlar,
Yaxşını yamana satıb insanlar.
Böyüyü kiçiyə qatıb insanlar,
İtib ağsaqqalın nuru üzündən.

Eşşək günahkardır, döyülür palan,
Zəmanə bəd gəlib, yeriyir yalan.
Çox şeyi demirəm o olub-qalan,
Mərifət-qanacaq itib azından.

Ağsaqqal olanmır saqqalı ağlar,
Bu ağrı sinəmi yandırar, dağlar.
Rəhmanam, ürəyim içimdə ağlar,
Bir damcı yaş belə gəlməz gözümdən.

## YAXŞIDIR

Nanəcibin, nakişinin gözündə
Ucalmaqdan ucalmamaq yaxşıdır.
Səfiltək qalsan da, çölün düzündə,
Şərəfsizə əl çalmamaq yaxşıdır.

Vicdan kiri uca-uca saraylar,
Saraylarda cin-şeytanlar haraylar.
Pullu kişi qışın günü də yaylar,
Ucalmaqçün alçalmamaq yaxşıdır.

Gəlmişik biz sınaqlardan keçməyə,
Aqilləri cahillərdən seçməyə.
Şərəf ilə bu dünyadan köçməyə,
Qocalmaqdan qocalmamaq yaxşıdır.

Ay Rəhman, fanidir dünyanın varı,
Uca tut hər şeydən namusu, arı.
Unutma heç zaman əhdi-ilqarı,
Təmiz ürək insanlığın naxşıdır.

## MƏN

Məni həmdəm seçib özünə kədər,
Hər zaman bir dərdlə dərdləşirəm mən.
Baxıram hər yanda dərd dərddən betər,
Bir qəm zirvəsinə əkilmişəm mən.

Hər qəmli könülün dayəsiyəm mən,
Hər qəm kitabının ayəsiyəm mən.
Yiyəsiz qəmlərin yiyəsiyəm mən,
Bir qəm dünyasına çəkilmişəm mən.

Sərt qışı görməyən baharı duymaz,
Yalandan sevinən qəhəri duymaz.
Yuxudan gec qalxan səhəri duymaz,
Üfüqdən dan kimi sökülmüşəm mən.

Dindirmə dərdliyəm, yaman yerimdir,
Sərt qışdan xoş bahar güman yerimdir.
Tanrıdan bir sevinc uman yerimdir,
Rəhman, çox sınağa çəkilmişəm mən.